# IŞĞALDAN AZAD OLUNMUŞ QARABAĞDA BIZNES FƏALIYYƏTININ TƏŞKILI IMKANLARI

*Hüseynova Emiliya Yəhya qızı, İqtisad elmləri namizədi, dosent*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Müasir Azərbaycan öz müstəqilliyi dövründə mürəkkəb və eyni zamanda sosial-iqtisadi və mədəni inkişaf ilə səciyyələnən şərəfli yol keçmişdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun əldə etdiyi Zəfərlə tarixi ədalət bərpa olunub, torpaqlarımız işğaldan azad edilib, nəticədə ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün yeni reallıq və imkanlar yaranıb.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikası Ermənistanın təcavüzüznə məruz qalmış, torpaqlarımızın 20%-i işğal edilmiş, bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma yurdlarından didərgin düşmüşdür. İşğal nəticəsində Qarabağda bütün kənd və şəhərlər tamamilə dağıdılmış və ərazinin ekosisteminə ciddi ziyan vurulmuşdur. 30 illik erməni işğalı nəticəsində dağıntıların miqdarı böyuk rəqəmlərlə ifadə olunmuşdur. İşğal nəticəsində dəyən ziyan təxminən 300 milyard ABŞ dollarından çox qiymətləndirilmişdir.

Postkonflikt ərazilərdə işğaldan öncə təxminən 617 min əhali, 159 min ailə yaşayıb, onlardan 76%-i kənd, 24%-i isə şəhər yerində məskunlaşmışdı. 900-dən çox yaşayış məntəqəsində təxminən 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb məntəqəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponantı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü, 5,2 min km avtomobil yolu, 286 km dəmir yolu xətti, 7,6 min km su xətti, 2 min km qaz kəməri xətti, 76,9 km elektrik xətti, 2,5 min ədəd transformatorlar və digər infrastruktur obyektləri tamamilə dağıdılmış, talan edilmişdir. Bütün bunlarla yanaşı, respublikamızın kənd təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi potensialına da ciddi ziyan vurulmuşdur. Təqribən 1,3 milyon hektar kənd təsərrüfatı üçün yararlı olan torpaq, 34,6 hektar meyvə və üzüm bağları, 220 min baş mal-qara, 280 min hektar meşələr, 1200 km irriqasiya sistemləri işğal nəticəsində tamamilə məhv edilmişdir.

Azərbaycan hökuməti torpaqlarımız işğaldan azad olunduqdan sonra Qarabağ bölgəsində bərpa və yenidənqurma işlərinə başlamışdır. Faktiki olaraq postkonflikt ərazilərin bərpası və yenidən qurulması dövlətin strateji hədəfinə çevrilmişdir.

İşğaldan azad edilmiş ərazilərimiz yerli və xarici investorların marağını cəlb edir. Burada bir neçə ağırlıq mərkəzi var. Yeni emal sənayesi müəssisələrinin yaradılmasına təkan verəcək hasilat sənayesi və kənd təsərrüfatının, müvafiq olaraq, Kəlbəcər, Füzuli, Zəngilan və Qubadlıda, logistika, xidmət və ticarət sahələrinin Cəbrayılda, turizmin Şuşada, sənayenin Ağdamda, ənənəvi üzümçülük və şərab istehsalı potensialının isə Xocavənddə xüsusi üstünlükləri gözə çarpmaqdadır. Hazırda bölgədə bir sıra əhəmiyyətli sərmayələrə söykənən təkliflər alınıb ki, bu da olduqca vacibdir. Çünki işğaldan azad edilmiş ərazilərimizin bərpası və ölkənin yeni inkişaf strategiyası böyük həcmli maliyyələşmə tələb edir. İqtisadi quruculuq üçün

investisiyaların cəlb edilməsi getdikcə daha da aktuallaşacaq. İndiyədək İqtisadiyyat Nazirliyinə bu ərazilərdə fəaliyyət göstərmək istəyən sahibkarlardan investisiyayönümlü və infrastruktur layihələrində iştirakla bağlı çoxsaylı layihələr təqdim olunub.

2021-ci ildə bir sıra mühüm müqavilələr bağlanıb. Məsələn, Azərbaycanın Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının tədqiqi, kəşfiyyatı və istismarı çərçivəsində Türkiyənin "Cengiz Holdinq" qrupuna daxil olan "Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətləri ilə müqavilə imzalanıb. Bundan başqa, Ağdamda yerləşən "Şahbulaq" əhəng daşı yatağının dövlət-özəl tərəfdaşlığı çərçivəsində istifadəyə verilməsi üzrə müvafiq tədbirlər həyata keçirilir. Yataq regionda zəruri infrastruktur üçün tələb olunan tikinti materiallarının təchizatında böyük rol oynayacaq. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları ilə bağlı böyük gözləntilər var. Ağdam Sənaye Parkı sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı və satışı, habelə xidmətlər üçün geniş imkanlar açacaq. İndiyədək burada 6 rezident qeydiyyatdan keçib, 2 müəssisənin təməli qoyulub. Bu rezidentlər günəş enerjisi ilə qidalanan işıq dirəkləri və xüsusi dam örtüklərinin, prefabrik dəmir-beton məmulatlarının, polimer məhsullarının, uniforma, xüsusi və fərdi geyimlərin, müxtəlif çeşidli sintetik xalçaların istehsalı üzrə fəaliyyət göstərir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da hazırda quruculuq işləri, o cümlədən mobil şəhərciyin salınması üzrə işlər aparılır. Sənaye Parkı azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri üzrə logistika mərkəzi və Zəngəzur dəhlizi üzrə nəqliyyat potensialından səmərəli istifadə üçün logistik baza rolunu yerinə yetirəcək. Burada logistika və anbar kompleksləri, TIR parkı, topdan və pərakəndə satış obyektləri, müxtəlif istehsal və xidmət müəssisələrinin fəaliyyəti planlaşdırılır.

Torpaqlarımızın işğaldan azad olunması, bununla da ölkəmiz və yerləşdiyi region üçün yeni reallıqların yaranması tranzit-logistika imkanlarımızın əhəmiyyətli dərəcədə genişlənməsinə həlledici təsir göstərəcək. Bölgədə yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması, o cümlədən Zəngəzur dəhlizi Azərbaycanı regionun nəqliyyat-tranzit qovşağına çevirməklə, sahibkarlara yeni əməkdaşlıq imkanları yaradacaq. Bundan əlavə, 2022-ci ilin mart ayında İran İslam Respublikası ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, İrandan keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu və Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantısının yaradılması mühüm əhəmiyyət kəsb edir. Ümumilikdə, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq qlobal bazarlara çıxış imkanlarını artıracaq, ölkəmizin, o cümlədən işğaldan azad edilmiş ərazilərimizin iqtisadi inkişafına ciddi təkan verəcək.

İşğaldan aza edilmiş ərazilərdə yaşayış və məşğulluq üçün yaradılmış münbit şərait  məcburi köçkünlərin öz doğma yurduna qayıdışını sürətləndirməklə yanaşı, biznes subyektlərinin də Qarabağ ərazisində iqtisadi fəaliyyət göstərməsinə böyük maraq doğurmuşdur.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müraciətlərin qəbulu, təhlili, sahibkarların məlumatlandırılması, müvafiq tövsiyələrin verilməsi və müraciətlərin aidiyyəti olaraq yönləndirilməsi işləri İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən

təmin edilir. İndiyə qədər işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya 1400-dən artıq müraciət daxil olub ki, onun da 460-ı xarici, qalanı isə yerli müraciətlərdir. Xarici müraciətlərin yarıdan çoxu Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin payına düşür. Onların sırasında Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Macarıstan yer alır. Daxil olmuş layihələr əsasən ticarət, xidmət, inşaat, sənaye, kənd təsərrüfatı, mədəniyyət, təhsil, nəqliyyat, logistika və digər sahələri əhatə edir.

KOBİA Azərbaycan dövlətinin Qarabağa dair inkişaf konsepsiyasına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşu və biznes layihələrinin reallaşdırılması ilə bağlı məsələləri qarşıdakı dövrdə strateji fəaliyyət gündəliyinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Bu məqsədilə hazırda tərəfimizdən 3 istiqamətdə işlər aparılır: Qarabağın investisiya potensialının geniş auditoriya kütləsinə tanıdılması, azad olunmuş ərazilərdə bizneslərin yaradılması ilə bağlı müraciətlərin qəbulu və ilkin biznes infrastrukturunun qurulmasına dəstək.

Statistikaya əsasən ölkədə biznes subyektlərinin 99%-ni kiçik və orta biznes subyektləri təşkil edir. 2021-ci ildə mikro sahibkarlıq subyektlərinin ümumi dövriyyəsi üzrə 31%, kiçik sahibkarlıq üzrə 79%, orta sahibkarlıq üzrə 139% artım qeydə alınıb. Sahibkarlara, xüsusilə mikro və kiçik, orta sahibkarlıq subyektlərinə dövlət tərəfindən müxtəlif xidmətlər göstərilir. Doğma torpaqlarımız işğaldan azad edildikdən sonra bu sahibkarların bir qismi öz fəaliyyətini Qarabağda davam etdirmək arzusundadırlar.

Aparılan sorğunun nəticələri də göstərir ki, Qarabağda sahibkarların 46,6%-i gələcək fəaliyyət sahəsi kimi kənd təsərrüfatına üstünlük verir. Sənaye (8,8%), inşaat (7,6%), ticarət (6,7%), təhsil (5,9%), digər fəaliyyət sahələri (24,4%) də sahibkarların maraq dairəsindədir.

KOBİA-nın təşkilatçılığı ilə bir qrup sahibkarlarla Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Ağdam, Kəlbəcər və Laçın rayonlarına səfərlər təşkil edilmiş, nəticə olaraq bir sıra ərazilərdə biznes və ictimai xidmət obyektləri istifadəyə verilmişdir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaradılmış suvenir istehsalı müəssisəsi isə Türk qardaşlarımız ilə birgə işbirliyinin uğurlu nəticəsidir.

İşğaldan azad edilmiş ərazilərdə biznesin qurulmasına maraq göstərən qadın sahibkarlar da var. Biznes qurmaq istəyən qadın sahibkarların təqdim etdikləri layihələrin əksəriyyəti ticarət və xidmət, sənaye, kənd təsərrüfatı, turizm, tikinti işləri, təhsil, səhiyyə sahələri və s. üzrə olub. KOBİA qadın sahibkarlara da dəstək və xidmətlər göstərir. Ölkə iqtisadiyyatının inkişaf prioritetləri və milli xüsusiyyətləri nəzərə alınmaqla, KOBİA qadın sahibkarlığının inkişafını təşviq etmək, kiçik və orta sahibkarlar arasında qadınların sayının daha da artması üçün müvafiq tədbirlər həyata keçirir. 2021-ci ildə Agentliyin KOB inkişaf mərkəzləri tərəfindən təşkil olunmuş təlimlərdən 9 minə yaxın qadın sahibkar və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən qadınlar yararlanıb, o cümlədən KOBİA, Dövlət Məşğulluq Agentliyi və Azərbaycana Birgə Yardım Təşkilatının (UAFA) birgə həyata keçirdiyi “Məktəbim” layihəsi çərçivəsində 65 qadın biznes təlimlərinə cəlb olunub, 3 qadın sahibkara qrant, 4 qadın sahibkara isə “Startap” şəhadətnaməsi verilib. KOBİA Qarabağ və

Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafına qadın sahibkarların da öz töhfəsini verməsi üçün onlara dəstək göstərməyə hazırdır.

Qarabağda iqtisadiyyatın yenidən qurulması sahəsində məqsəd həm də sahibkarları və onların sərmayələrini regionun iqtisadi inkişafına cəlb etməkdir. Əslində pul qazanmaq marağında olan sahibkarlar da Qarabağda fəaliyyət göstərməyə həvəsli görünürlər.

Bir sözlə, Qarabağda sahibkarlığın inkişafı istiqamətində aparılan məqsədyönlü fəaliyyət göstərir ki, hökumət Qarabağın iqtisadiyyatında sahibkarların rolunu artırmaq, investisiya yatırımlarına şərait yaratmaq fikrindədir, hətta onlara maliyyə dəstəyi göstərmək üçün müxtəlif stimullaşdırıcı addımlar da atır və bu poses davamlı olacaq. Əslində Qarabağda yaxın gələcəkdə iqtisadiyyat quruculuğu həm də burada sahibkarların aktivliyindən asılı olacaq. Çünki yerli və xarici sahibkarlar Qarabağda əsas sərmayəçilərdən olacaqlar, yerli biznesi məhz onlar quracaqlar. Qarabağa sərmayələrin cəlb olunması prosesində əsas maliyyə qaynaqları dövlət investisiyaları, xarici maliyyələşmə (ianələr; investisiyalar; kreditlər; qrantlar; borcların silinməsi; humanitar yardımlar), bank kreditləri, əhalinin vəsaitləri, müxtəlif fondların vəsaitləri (Dirçəliş Fondu, Yaşat Fondu və s.) və sahibkarların yatırımlarıdır.

Stimullaşdırıcı addım kimi hətta Qarabağda sahibkarlar vergi və rüsumlardan da azad edilə bilər. Azad edilmiş ərazilərin bərpası üzrə işlər dövlət-özəl tərəfdaşlığı çərçivəsində aparılır.

Sahibkarlara başqa bir kömək də satışa dəstək mexanizmidir. Burada sahibkarların məhsullarının və xidmətlərinin yerli və xarici bazarlara çıxışına dəstək göstərməklə biz KOB-ların qeyri-neft ixracında payının artmasına nail olur, həmçinin “Made in Azerbaijan” brendinin təşviqinə dəstək veririk. Müxtəlif yerli və xarici sərgilərdə KOB-ların iştirakına şərait yaradırıq. Bunlar təmənnasız həyata keçirilir. KOB-lar orada öz məhsullarını geniş auditoriyaya tanıda bilirlər. 2022-ci ilin ilk rübündə 80-ə yaxın KOB subyekti öz məhsullarını yerli və xarici ölkələrdə tanıda bilib.

Ədəbiyyat:

1. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı. 2016.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
3. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA). Bakı. 2017.
4. İmanov N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı. 2010.
5. "İşğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün əlavə güzəşt mexanizmləri hazırlanacaq". URL: https://marja.az/90591/isgaldan-azad-edilmis-erazilerde-sahibkarlar-ucun-elave-guzest-mexanizmleri-hazirlanacaq